# Azərbaycan və Türkiyə müdafiə nazirləri Antalyada hərbi əməkdaşlığın cari vəziyyətini müzakirə ediblər



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Antalya Diplomatiya Forumu çərçivəsində Türkiyənin milli müdafiə naziri Yaşar Gülərlə görüşüb.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, görüşdə hər iki qardaş ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2025.- 13 aprel (№ 72).- S.2.